Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvləri Bəxşeyiş Əsgərovun və Qabil Orucovun 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 oktyabr 2015-ci il tarixli 40 saylı və 7 oktyabr 2015-ci il tarixli 54 saylı müraciətlər üzrə

**BİRGƏ RƏYİ**

Bakı şəhəri 7 oktyabr 2015-ci il

Biz, ekspert qrupunun üzvləri Bəxşeyiş Əsgərov və Qabil Orucov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlunun 6 oktyabr 2015-ci il tarixli, 40 saylı və 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Babayev Muxtar Bahadur oğlunun səlahiyyətli nümayəndəsi Ənsərov Vəzirxan Nəbi oğlunun 7 oktyabr 2015-ci il tarixli, 54 saylı yazılı müraciətlərini araşdıraraq müəyyən etdik:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən, nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən və mahiyyətcə eyni bir məsələyə aid olduqlarından bir icraatda birləşdirilərək araşdırmaya qəbul edilmişdir.

"AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlu 6 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək 01 noyabr 2015-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "AZADLIQ -2015" siyasi partiyalar bloku tərəfindən 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Fəttayev Mirmahmud Mirəli oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və həmin qərarın ləğv edilməsini xahiş etmişdir.

43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Babayev Muxtar Bahadur oğlunun səlahiyyətli nümayəndəsi Ənsərov Vəzirxan Nəbi oğlu 7 oktyabr 2015-ci il tarixdə Mərkəzi Seçki Komissiyasına müraciət edərək dairə seçki komissiyası tərəfindən deputatlığa namizəd Fəttayev Mirmahmud Mirəli oğlunun namizədliyinin müdafiəsi üçün təqdim olunmuş imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərinin, habelə onun qeydə alınmasına mane olan halların səthi araşdırdığını və lazımınca qiymətləndirmədiyini əsas gətirərək həmin sənədlərin yenidən yoxlanılmasını və məsələyə yenidən qiymət verilməsini xahiş etmişdir.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri kimi tərəfimizdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində müraciət etmiş şəxslərlə əlaqə saxlanılmış, onlara əlavə sənəd təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah olunmuş, yalnız siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi B.Ə.Əbil bu hüququndan istifadə edərək araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirak etmişdir.

Səlahiyyətli nümayəndə B.Ə.Əbil müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə M.M.Fəttayevin namizədliyi 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə "AZADLIQ -2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülmüş, həmin seçki dairəsi üzrə imzalar toplanaraq, onun namizəd

kimi qeydə alınması üçün 550 sayda imzadan ibarət 11 imza vərəqəsi və digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin dairə seçki komissiyası 3 oktyabr 2015-ci il tarixli 20/57 saylı qərarı ilə M.M.Fəttayevin namizəd kimi qeydə alınmasından əsassız olaraq imtina etmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş M.M.Fəttayevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizədin qeydə alınması üçün etibarlı seçici imzalarının sayı yetərli olmamışdır.

Ərizəçilərin müraciətləri əsasında namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələri və digər seçki sənədləri Mərkəzi Seçki Komissiyasında yenidən araşdırılmışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələri və digər seçki sənədləri yoxlanılarkən gəlinən nəticə əsasən düzgün olsa da, seçici imzalarının etibarlılığına qiymət verilərkən dairə seçki komissiyası tərəfindən bəzi yanlışlıqlara yol verilmişdir.

Belə ki, Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan həmin sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 7 oktyabr 2015-ci il tarixli protokol və rəylərdən görünür ki, M.M.Fəttayevin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan 550 imzadan 421-i etibarlıdır

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımı saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Araşdırma ilə həmçinin B.Ə.Əbilin namizədə və ya səlahiyyətli nümayəndələrə təqdim edilməli olan sənədlərin vaxtında verilmədiyinə, araşdırmada və iclasda iştiraka dəvət edilmədiklərinə dair iddiaları dairə seçki komissiyası tərəfindən təqdim edilmiş sübutlarla təkzib edilmişdir.

Beləliklə, müəyyən edilmişdir ki, dairə seçki komissiyası müəyyən etdiyi bütün halları və əsasları öz qərarında dəqiqliklə əks etdirməsə də, göstərilən əsaslarla deputatlığa namizədliyi təsdiq olunmuş M.M.Fəttayevin namizədliyinin qeydə alınmasından imtina edilməsi ilə bağlı düzgün nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlunun şikayəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 43 saylı Sumqayıt üçüncü dairə seçki komissiyasının 3 oktyabr 2015-ci il tarixli, 20/57 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Həmin seçki dairəsi üzrə qeydə alınmış namizəd Babayev Muxtar Bahadur oğlunun səlahiyyətli nümayəndəsi Ənsərov Vəzirxan Nəbi oğlunun 7 oktyabr 2015-ci il tarixli, 54 saylı müraciəti isə namizədin qeydə alınması üçün dairə seçki komissiyasına təqdim edilmiş sənəd və materiallar Mərkəzi Seçki Komissiyasında yenidən araşdırıldığından təmin edilmiş hesab olunmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 112-ci, 112-1-ci, 147-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə  g əl d i k:**

1. "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Əbil Bəybala Əlibala oğlunun 6 oktyabr 2015-ci il tarixli, 40 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 43 saylı Sumqayıt üçüncü dairə seçki komissiyasının 3 oktyabr 2015-ci il tarixli, 20/57 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Babayev

Muxtar Bahadur oğlunun səlahiyyətli nümayəndəsi Ənsərov Vəzirxan Nəbi oğlunun 7 oktyabr 2015-ci il tarixli, 54 saylı müraciəti təmin edilmiş hesab olunsun.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvləri** **Bəxşeyiş Əsgərov**

**Qabil Orucov**